# Azərbaycan-BMT əməkdaşlığı uğurla inkişaf etməkdədir



*Azərbaycan müstəqillik illərində dünyanın əksər ölkələri, eyni zamanda, aparıcı beynəlxalq təşkilatlarla sıx qarşılıqlı münasibətlər qurub. Bu əməkdaşlıq qarşılıqlı faydalı əsaslarda genişlənməkdədir. Ölkəmiz BMT-yə üzv olduğu gündən bəri bu təşkilatla da münasibətlərini ən yüksək səviyyədə davam etdirir. 1992-ci il martın 2-də BMT Baş Məclisinin 46-cı sessiyasının 82-ci plenar iclasında Azərbaycan Respublikasının Birləşmiş Millətlər Təşkilatına üzv qəbul olunmasından artıq 30 il keçir. 111 dövlətin adından irəli sürülmüş bu qətnaməyə BMT-nin bütün üzvləri yekdilliklə səs veriblər. Eyni zamanda, ölkəmiz 24 oktyabr 2011-ci ildə BMT Təhlükəsizlik Şurasının iki illik (2012–2013) qeyri-daimi üzvü seçilmişdir.*

Bu gün də BMT ilə ən müxtəlif səviyyələrdə əməkdaşlığımız uğurla davam edir. İyunun 12-də BMT Baş Assambleyasının 76-cı sessiyasının prezidenti Abdulla Şahidin Azərbaycan xarici işlər nazirinin dəvəti ilə ölkəmizə səfərə gəlməsi də bunu təsdiq edir. BMT-nin Azərbaycan nümayəndəliyindən verilən xəbərə görə, səfər iyunun 13-dək davam edəcək.

Abdulla Şahidin iyunun 13-də Prezident İlham Əliyev və Xarici İşlər naziri Ceyhun Bayramovla görüşəcəyi bildirilir. Baş Assambleya prezidentinin Milli Məclisin Sədri Sahibə Qafarova ilə də görüşü gözlənilir. Elə həmin gün Abdulla Şahid ADA Universitetində gənclər və müəllimlərlə görüş keçirəcək.

Azərbaycana səfəri zamanı Baş Assambleya prezidenti BMT-nin ölkəmizdəki rezident-əlaqələndirici Vladanka Andreevanın rəhbərlik etdiyi BMT-nin Ölkə üzrə İdarə Heyətinin üzvləri ilə də görüşəcək. Abdulla Şahidi Baş Assambleya Prezidenti Ofisinin (BAPO) dörd əməkdaşı müşayiət edəcək.

Bir neçə gün əvvəl Azərbaycan Respublikası Prezidentinin köməkçisi – Prezident Administrasiyasının Xarici əlaqələr şöbəsinin müdiri Hikmət Hacıyev Nyu-Yorkda Birləşmiş Millətlər Təşkilatının (BMT) Baş Assambleyasının sədri Abdulla Şahid ilə görüşüb. Görüşdə Azərbaycanın daim çoxtərəfli diplomatiyanı dəstəklədiyi vurğulanıb və Qoşulmama Hərəkatının sədri kimi bu istiqamətdə gördüyü işlər müzakirə edilib.

Azərbaycan Prezidenti İlham Əliyev 2021-ci il sentyabrın 23-də BMT Baş Assambleyasının 76-cı sessiyasının dövlət və hökumət başçıları səviyyəsində keçirilən illik ümumi müzakirələri zamanı videoformatda çıxış edərkən bildirmişdi ki, ölkəmiz BMT ilə sıx əməkdaşlıq edir, təşkilatın tədbirlərində fəal iştirak edir. Bundan əlavə, dövlətimizin başçısı qeyd etmişdi ki, ötən ilin sentyabrında BMT Baş Assambleyasındakı çıxışı zamanı BMT üzvlərinin diqqətini Azərbaycan ərazilərinin Ermənistan tərəfindən işğalının davam etməsinə və Ermənistan hökumətinin təcavüzkar bəyanatlarına və hərəkətlərinə yönəltmişdi: "Bu gün qürur hissi ilə deyirəm ki, Ermənistan döyüş meydanında məğlub edildi və Azərbaycan işğala son qoydu. Təqribən 30 il ərzində Ermənistan ölkəmizin ərazisinin 20 faizini işğal altında saxlayırdı. İşğal müharibə cinayətləri və insanlıq əleyhinə cinayətlərlə müşayiət olunub. Ermənistan 1992-ci ildə Xocalı soyqırımını törədərək, yüzlərlə dinc insanı, o cümlədən 106 qadını və 63 uşağı qətlə yetirmişdir. 1275 azərbaycanlı əsir götürülmüşdür, onların 150-si hələ də itkin hesab olunur. Xocalı soyqırımı 13 ölkə tərəfindən tanınıb. Ermənistan tərəfindən həyata keçirilən etnik təmizləmə nəticəsində bir milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür".

Bu il fevralın 25-də BMT Baş Assambleyası sədrinin "Universal peyvəndlənmə üçün səylərin artırılması" mövzusunda təşkil etdiyi yüksək səviyyəli tematik müzakirələrdə iştirak edən Azərbaycan Prezidenti İlham Əliyev milli qisimdə və Qoşulmama Hərəkatının sədri kimi hərəkata üzv dövlətlər adından videoformatda çıxış etmişdi. Azərbaycan lideri bildirmişdi ki, Qoşulmama Hərəkatına üzv dövlətlər BMT Baş Assambleyasının sədri cənab Abdulla Şahidin COVID-19 pandemiyası ilə mübarizədə universal peyvəndlənməyə dair belə yüksək səviyyəli tematik müzakirələrin keçirilməsi təşəbbüsünü təqdir edir. Bu toplantı dünyada COVID-19 əleyhinə keyfiyyətli, təhlükəsiz, effektiv və məqbul qiymətə olan peyvəndlərdən istifadə məqsədilə bərabər imkanların təmin edilməsi ilə bağlı problemlərin davam etdiyi vaxta təsadüf edir.

Onun sözlərinə görə, pandemiyanın başladığı dövrdən Qoşulmama Hərəkatı multilateralizm, əməkdaşlıq və həmrəylik ruhunda geniş beynəlxalq ictimaiyyətin səylərini fəal şəkildə səfərbər edərək, pandemiya ilə mübarizə və onun mənfi nəticələrinin aradan qaldırılması baxımından bir sıra uğurlu təşəbbüslər irəli sürmüşdür. 2020-ci ilin dekabrında BMT Baş Assambleyasının COVID-19 pandemiyası ilə mübarizəyə həsr edilmiş xüsusi sessiyasının keçirilməsi, habelə ötən ilin mart və dekabr aylarında İnsan Hüquqları Şurası və Baş Assambleya tərəfindən qəbul edilmiş "COVID-19 pandemiyası ilə mübarizədə bütün ölkələr üçün peyvəndlərə bərabər, məqbul qiymətə, vaxtında və universal əlçatanlığın təmin edilməsi"nə dair qətnamələr Qoşulmama Hərəkatına üzv dövlətlər adından irəli sürülmüşdür.

Azərbaycanda COVID-19 pandemiyasının nəzarətdə saxlanılması üçün təsirli və adekvat tədbirlərin həyata keçirildiyini bəyan edən Prezident İlham Əliyev demişdi ki, biz peyvəndlənmə kampaniyasına 2021-ci ilin yanvarında başlamışıq. Bu günədək ölkədə yetkin əhalinin 68 faizinə peyvəndin hər iki dozası vurulub. COVID-dən əziyyət çəkmiş əhali və sahibkarlıq subyektlərinin dəstəklənməsi üçün dövlət büdcəsindən 1,6 milyard ABŞ dolları məbləğində maliyyə yardımı ayrılıb.

Azərbaycan pandemiya, "peyvənd millətçiliyi" və peyvəndlərdən istifadə ilə bağlı inkişaf etmiş və inkişaf etməkdə olan ölkələr arasında qeyri-bərabərliyə qarşı beynəlxalq həmrəyliyin gücləndirilməsi istiqamətində vacib qlobal təşəbbüslərlə çıxış edib. BMT Baş Assambleyasının xüsusi sessiyası, peyvəndlərdən bərabər və universal istifadənin təmin edilməsinə dair qətnamələr bunun bariz nümunəsidir. Həmrəylik əlaməti olaraq, koronavirusla mübarizəni dəstəkləmək məqsədilə Azərbaycan birbaşa və ya Ümumdünya Səhiyyə Təşkilatı vasitəsilə 80-ə qədər ölkəyə maliyyə və humanitar yardımı etmişdir. Bununla yanaşı, biz 5 ölkəyə peyvənd ianəsi etmişik və bu iş davam etdiriləcək. Hazırda biz Qoşulmama Hərəkatına üzv olan 14 ölkəyə təqribən bir milyon doza peyvəndin ianə edilməsi prosesindəyik.

***Paşa ƏMİRCANOV,***
***"Xalq qəzeti"***

Xalq qəzeti .- 2022.- 12 iyun.- S.6.